# Bir gündə qazanılan qələbə

## Azərbaycan növbəti dəfə qətiyyətini ortaya qoydu

**Regionda sülh və təhlükəsizliyin bərqərar olması üçün ilk növbədə separatizm və terrorizmə son qoyulmalı idi. Buna görə də Qarabağ bölgəsində qeyri-qanuni cinayətkar rejimin ləğvi şərt idi. Odur ki, Azərbaycan bunu etdi, lokal antiterror tədbirləri ilə qısa müddətdə erməni terrorçularını zərərsizləşdirdi.**







Xalqa müraciətində bu mövzuya toxunan Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bölgəmizdə yeni vəziyyətin yaranması labüd idi. Kriminal xunta rejimi təslim olandan sonra bu gərginlik mənbəyi, bu zəhər yuvası artıq tarixdə qaldı və Qarabağda yaşayan erməni əhalisi də, nəhayət, rahat nəfəs ala bilər. "Bunu mən demişəm və bir daha demək istəyirəm, Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır. Sadəcə olaraq, erməni millətçiləri, müharibə cinayətkarları, Ermənistanın və Qarabağın dırnaqarası rəhbərləri o insanları girov götürmüşdü, onların beyinlərini zəhərləmişdi. Azərbaycan haqqında, Azərbaycan xalqı haqqında olmazın yalanlarını uydurub onların beyinlərinə doldurmuşdur, onların beyinlərini zəhərləmişdir. Mən əminəm ki, Qarabağda yaşayan erməni əhalisi tezliklə yaxşılığa doğru dönüşü görəcək. Çünki bizim niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır. Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur, ədavətimiz də yoxdur", - deyə dövlət başçısı bildirdi. Hərbçilərimizin fəaliyyətini də yüksək qiymətləndirən ölkə rəhbəri qeyd etdi ki, Azərbaycanın igid oğulları növbəti dəfə böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərdilər.

Beləliklə, 24 saatdan da az müddətdə hərbçilərimizin şücaəti və qəhrəmanlığı sayəsində antiterror tədbirlərinin uğurla başa çatması ilə Azərbaycan öz şərtlərini qəbul etdirdi.

### Azərbaycan xalqı tarixdə qəhrəman xalq kimi qalacaq

Milli Məclisin deputatı Anar İsgəndərov qeyd edib ki, əsrlər əvvəl Qarabağ xanlığı mövcud olduğu dövrdə 5 alban məlikliyi Qarabağ xanlığını zəifltmək üçün çar Rusiyasından kömək istəmişdi. Bəzən bu o qədər çox olurdu ki, onlar xanlığın qoşunları ilə üz-üzə qala bilirdilər. Lakin illər keçdi, Qarabağda vəziyyət heç də yaxşılaşmadı. XIX əsrin əvvəllərində xanlıqların fəaliyyətinə son qoyuldu, torpaqlarımız işğal edildi. Azərbaycan tarixində ilk dəfə Şimali və Cənubi Azərbaycan ifadələri meydana gəldi. On minlərlə erməni bu ərazilərə köçürüldü. Bununla da Azərbaycan xalqına qarşı, əslində, soyqırımının bünövrəsi qoyuldu. Daha sonra ərazilərimizdə erməni vilayəti, İrəvan quberniyası yaradıldı. Nəhayət, sovet dönəmində ermənilərin Azərbaycana ərazi iddiaları ortaya çıxdı. Bir çox halda isə ermənilərin istəkləri təmin edildi.

A.İsgəndərov deyib ki, 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmaqla, Azərbaycan ərazisində qara yaranın əsası qoyuldu: "Havadarlarının köməyi ilə Qarabağ guya erməni torpağıdır ideyasının hər yerə yayılmasında erməni lobbisi və diasporu dəridən-qabıqdan çıxdı. Sovet dövləti dağılan zaman ermənilər vəziyyətdən istifadə edərək guya Azərbaycandan ayrılıb "müstəqillik"lərini elan etdilər. 30 illik Qarabağ münaqişəsi bir milyonluq qaçqın və məcburi köçkünlük həyatını yaratdı. Torpaqlarımızın 20 faizinin işğal olunması isə Qarabağda erməni amilini gücləndirdi".

44 günlük Vətən müharibəsində erməni işğalçılarının darmadağın edildiyini vurğulayan deputat bildirib ki, Şuşa başda olmaqla tarixi torpaqlarımız işğaldan azad olundu. Amma Ermənistanın Qarabağ ərazisində saxladığı qeyri-qanuni silahlı birləşmələr əsl erməni xislətini göstərməyə başladı. Xankəndi və bəzi ərazilərimizdə erməni hərbi birləşmələri təhlükə törədir, mövqelərimizi artilleriya atəşinə tuturdular. Həm mülki, həm də quruculuq işlərində çalışan şəxslər üçün təhlükə yaranmışdı. Ona görə Azərbaycan lokal xarakterli antiterror tədbirlərini keçirərək Ağdərə, Xankəndi, Əsgəran istiqamətində separatçıların mövqelərini sıradan çıxartdı, hərbi məntəqələrini darmadağın etdi.

Deputat qeyd edib ki, Azərbaycan tarixində ilk dəfə olaraq suverenliyini tam təmin etdi. "Cümhuriyyət dövründə Bakı alınarkən dövrün siyasi xadimləri sevinc hissi ilə qeyd edirdilər ki, nəhayət, başla ayaq birləşdi. Bu gün də uca səslə xalq olaraq dünyaya bəyan edirik ki, Azərbaycanın bütövlüyü təmin olunub, artıq işğalda qalan ərazimiz yoxdur. Üçrəngli bayrağımız Azərbaycanın hər yerində dalğalanır. İndi şəhidlərimizin də ruhu şaddır. Azərbaycan öz tarixində bütün ərazisinin sahibi olmaqla dünyanın inkişaf etmiş dövlətlərindən birinə çevriləcək. Azərbaycan xalqı da tarixdə qəhrəman xalq kimi qalacaq".

### Dünya hərb tarixinin qızıl səhifələrindən biri yazıldı

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında deyib ki, Ermənistan silahlı qüvvələri birləşmələrinin və qeyri-qanuni erməni silahlı dəstələrinin ağ bayraq qaldırıb silahı yerə qoymaları, döyüş mövqelərindən və hərbi postlardan çıxaraq tam şəkildə tərk-silah olunmaları milli dövlətçilik tariximizdə yeni səhifədir, hərbçilərimizin qəhrəmanlıq salnaməsidir.



Deputat bildirib ki, lokal xarakterli antiterror tədbirləri zamanı Azərbaycan hərbçisi qarşısında "peşəkar" hərbçilərdən və muzdlu döyüşçülərdən ibarət, "təcrübəli" şəxsi heyət dayanırdı və yarmalı olduğumuz möhkəmləndirilmiş müdafiə mövqeləri var idi. Üstəlik, hərbi mövqelər qəsdən yaşayış məskənlərinin, iaşə obyektlərinin yaxınlığında yerləşdirilmişdi ki, hər hansı tədbir zamanı mülki əhalidən sipər kimi istifadə edilsin. Eyni zamanda siyasi situasiya da kifayət qədər mürəkkəb idi və aralarında BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olmaqla separatçılara açıq formada dəstək verənlər də var idi. Belə mürəkkəb hərbi-geosiyasi şəraitdə cəmi 23 saat 45 dəqiqəyə düşmənin diz çökdürülməsi dünya hərb tarixinin qızıl səhifələrindən biridir: "Xalqımızın həmrəyliyi və döyüş ruhunu, Silahlı Qüvvələrimizin peşəkarlığını xüsusi qeyd etməklə, deyə bilərik ki, bu qələbə ilk növbədə Prezident İlham Əliyevin zəfəri hesab olunmalıdır. Çünki ordu quruculuğu, müasir müdafiə sənayesi sahəsində nailiyyətlər, həmçinin formalaşan yeni geosiyasi reallıqlar məhz cənab İlham Əliyevin əsəridir".

Deputat vurğulayıb ki, Prezident İlham Əliyev bir neçə əsr sonra ilk dəfə xalqımızı məğlubdan qalibə çevirərək Vətən müharibəsindəki zəfərimizlə tarixin heç bir dövründə olmadığı qədər güclü milli birlik və həmrəyliyin əldə olunmasına, milli ruhun dirçəldilməsinə nail olub. Azərbaycan antiterror tədbirlərinə start verərkən isə tamamilə aydın və legitim hədəflərlə yola çıxmışdı: "Biz Qarabağda erməni silahlı qüvvələri tərəfindən gözlənilən genişmiqyaslı təxribatların qarşısının alınmasını, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılmasını, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsini, dinc əhalinin, o cümlədən ərazidə aparılan bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliklərinin təmin olunmasını tələb edirdik. Yekun məqsəd isə separatçıların mövcud olduğu "boz zona"da Azərbaycanın konstitusion quruluşunu bərpa etmək idi".

Deputatın sözlərinə görə, niyyətlərin beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə uyğun olması, antiterror tədbirlərinin isə humanitar hüququn şərtləri rəhbər tutulmaqla aparılması, eyni zamanda qəti tədbirlər çərçivəsində bir nəfər də olsun mülki insan və mülki obyektin hədəfə alınmamasının peşəkarlıqla təmin olunması bütün mümkün kənar təsirləri heçə endirdi: "Siyasi təzyiq cəhdlərinin isə qalib, müstəqil güc olan Azərbaycan üçün əhəmiyyət kəsb etməməsi ildırım sürətli qələbəni gətirdi. Üstəlik, güc və imkanlarımız, ən əsası isə cənab İlham Əliyevin qətiyyətli mövqeyi bizə imkan verdi ki, antiterror tədbirlərinin Azərbaycanın daxili işi olmaqla bərabər, həm də beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə, Azərbaycanın tərəfdar çıxdığı müqavilələrə, o cümlədən BMT Nizamnaməsinə tam uyğun olduğunu hər kəsə sübut edək".

B.Məhərrəmov qeyd edib ki, Müzəffər Ali Baş Komandanın "Qarabağ Azərbaycandır!" deməyə məcbur etdiyi Ermənistan rəhbərliyi qalib iradənin qarşısında geri çəkilərək antiterror tədbirlərində seyrçi qalmağa məcbur oldu. Məhz bu iradənin sayəsində Azərbaycan özünün müasir tarixinin yeni mərhələsinə qədəm qoydu. Artıq sülh, əmin-amanlıq, reinteqrasiya prosesi önündə son əngəllər də aradan qalxmaqdadır. Bundan sonra revanş ruhu ilə yaşamağa cəhd edənlərin isə əfvi olmayacaq. Bir sözlə, qarşımızda uzun və mürəkkəb, lakin Azərbaycanın diktəsi ilə reallaşacaq, regionda sülh və dayanıqlı sabitliyə, ləyaqətli birgəyaşayışa aparıb çıxaracaq yol xəritəsi mövcuddur.

### Prezident İlham Əliyevin növbəti qətiyyəti

Milli Məclisin deputatı Ceyhun Məmmədov isə bildirib ki, Prezident İlham Əliyev növbəti dəfə böyük qətiyyət və prinsipiallıq nümayiş etdirərək qələbəni təmin etdi.

Deputat vurğulayıb ki, Azərbaycan uzun müddət proseslərin sülh yolu ilə həll olunmasına çalışsa da, Ermənistan üzərinə düşən öhdəliyi yerinə yetirmədi. Amma Azərbaycan öz məqsədinə nail oldu və şərtlərini qəbul etdirdi.

"Bu, Azərbaycanın böyük uğurudur. Ermənilər artıq təslim oldu. Onların təslim olması həm də havadarlarının təslim olması anlamına gəlir. Eyni zamanda öz məqsəd və hədəflərimizə çatdıq. Bunu tam əminliklə söyləyə bilərik. Növbəti günlərdə Azərbaycan strukturlarının həmin ərazilərdə nəzarəti və digər məsələlərlə bağlı real addımlar atılacaq. Azərbaycan sona kimi öz məqsədlərinə doğru irəliləyəcək", - deyə deputat qeyd edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.- 22 sentyabr.- S.6.